Bakı İqlim Fəaliyyəti Həftəsi işə başlayıb

Sentyabrın 29-da Bakı İqlim Fəaliyyəti Həftəsi 2025 (BCAW2025) işə başlayıb. AZƏRTAC xəbər verir ki, BCAW2025 regionun iqlim təqvimində mühüm tədbirlərdən biridir və dünya liderlərini, mütəxəssisləri, sərmayəçiləri, sahibkarları, gəncləri və icmaları iqlim həllərinə fokuslanaraq bir araya gətirir.

Proqrama enerji, maliyyə, iqlim adaptasiyası, kiçik və orta biznes müəssisələri, eləcə də ədalətli keçid mövzularında yüksəksəviyyəli siyasi dialoqlar, sənaye və innovasiya liderləri, habelə "yaşıl texnologiya" sahəsində sahibkarlıq fəaliyyəti ilə məşğul olan şəxslərin iştirakı ilə sektor üzrə "dəyirmi masa"lar, iqlim idarəçiliyi və fəaliyyətinə yeni baxış bucağı təklif edən gənclərin moderatorluğu ilə sessiyalar və sair daxildir.

BCAW2025 çərçivəsində əsas diqqət iqlim tədbirlərinin sürətləndirilməsinə, eləcə də hökumətlər, şirkətlər, elmi dairələr və icma nümayəndələri arasında iqlim üzrə həllyönümlü əməkdaşlığın inkişafına yönəldiləcək.

İnvestisiya platformaları, iqlim və keçid planları müzakirə olunub

Bakı İqlim Fəaliyyəti Həftəsi (BCAW2025) çərçivəsində keçirilən "Yaşıl keçid çağırışına cavab - Milli İqlim Planları (NDC-lər və NAP-lar), investisiya platformaları və keçid planları" mövzusunda sessiya keçirilib.

AZƏRTAC xəbər verir ki, GLOBE International-ın icraçı direktoru Malini Mehranın moderatorluğu ilə keçən sessiyada çıxış edən Azərbaycanın energetika nazirinin müavini Elnur Soltanov COP29-dan etibarən çox böyük nailiyyətlər əldə edildiyini deyib: "Bu nailiyyətlər yalnız ölkəmiz üçün deyil, həm də beynəlxalq tərəfdaşlarımız qarşısında sərgiləyə biləcəyimiz uğurlardır. İqlim dəyişikliyi ilə bağlı uzun müddət çalışdıq və indi düşünürük ki, bu prosesi daha da sürətləndirməyin yollarını tapmalıyıq".

O qeyd edib ki, hər bir ölkə öz milli maraqlarını qoruyur və həll yolları bu maraqlarla uyğun olmalıdır. Xüsusilə innovasiya sahəsində bu uyğunluq daha vacibdir. "Hökumətlər bu gündəliyi sürətləndirmək üçün mühüm rol oynaya bilər. Məsələn, qlobal istiləşməni 1,5 dərəcədən aşağı saxlamaq hədəflərini daha da irəli apara bilərlər. Lakin bu hədəflərə nail olmaq üçün özəl sektorun aktiv iştirakı mütləqdir. Hökumətlər bu təşəbbüsləri təbliğ etməli, "yaşıl texnologiya"ların tətbiqini təşviq etməlidirlər. Çünki "yaşıl texnologiya"lar özləri yüksək maliyyə tələb edir və yalnız həm dövlətin, həm də özəl sektorun dəstəyi ilə geniş yayılmaq imkanına malikdir", - deyə nazir müavini əlavə edib.

Onun sözlərinə görə, Nyu York və Berlin kimi şəhərlərdə bu sahədə maarifləndirmə tədbirləri geniş həyata keçirilir: "Bu nümunələr göstərir ki, həm ictimaiyyətin məlumatlandırılması, həm də texnologiyaların tətbiqi iqlim siyasətinin uğurlu olmasında həlledici rol oynayır. İnanırıq ki, hökumətlər, özəl sektor və cəmiyyət birgə çalışdıqda daha dayanıqlı, "yaşıl" və sabit gələcək üçün əhəmiyyətli addımlar atıla bilər".

"Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"in istinad mənbəyi olduğunu diqqətə çatdıran Azərbaycanın ekologiya və təbii sərvətlər nazirinin müavini Umayra Tağıyeva burada vahid vizyon müəyyənləşdirildiyini qeyd edib: "Eləcə də əsas məsələlərdən biri iqlim dəyişikliyinin təsirləri ilə mübarizədir. Strategiyada istixana qazlarının azaldılması, yeni texnologiyaların tətbiqi, bərpaolunan enerji mənbələrinin işə salınması və xüsusən də işğaldan azad olunmuş ərazilərdə "yaşıl texnologiya"ların tətbiqi, su resurslarından səmərəli istifadə və s. qeyd olunur. Həmin tədbirlər ətraf mühit texnologiyaları ilə mümkün ola bilər. Artıq öhdəliklər də müəyyənləşdirilib. Xüsusilə də innovativ təşəbbüslər, "yaşıl enerji" texnologiyası, dayanıqlı kənd təsərrüfatı, "ağıllı texnologiya"lara əsaslanan kənd konseptləri vasitəsilə Azərbaycanın Qarabağ zonasının sıfır emissiyalı zonaya çevrilməsi hədəflənir. Bu da neçə hektar torpaq sahəsinin əhatə edilməsi deməkdir".

Nazir müavininin sözlərinə görə, "yaşıl keçid" real hədəflər üzərində qurulmalıdır. "Bu, bizim üçün əsas hədəfdir. Sosial-iqtisadi siyasət strategiyası çərçivəsində Azərbaycan 2022-2026-cı illərdə ətraf mühitin vəziyyətinin yaxşılaşdırılması üçün müəyyən hədəflər müəyyənləşdirib. 70 faizə yaxın müsbət tendensiya əldə olunub. Bu hesabat dövrü üçün kifayət qədər böyük nailiyyətlərin olduğunu görürük. İndi isə növbəti faza: 2026-2030-cu illər üçün hazırlıqlar gedir. İqlim dəyişikliyi fəaliyyətlərinin müzakirəsi aparılır. Fəaliyyət planı və strategiya haqqında işlər gedir. Xüsusilə də dayanıqlı meşə idarəçiliyi və yaşıllıqların artırılması, hidrometeoroloji monitorinq xidmətinin genişləndirilməsi, eyni zamanda havanın keyfiyyətinin artırılması, Xəzər dənizinin ətraf mühitinin qorunması, tullantıların idarəolunması, torpaq resurslarından səmərəli istifadə, müxtəlifliyin təmin edilməsi və digər ətraf mühitə nəzarət mexanizmlərinin işə salınması istiqamətlərində tədbirlər həyata keçirilir", - deyə o diqqətə çatdırıb.

BMT Baş Assambleyasının 73-cü sessiyasının prezidenti Maria Fernanda Espinoza Azərbaycanın iqlim dəyişikliyi ilə bağlı çox effektiv işlər gördüyünü qeyd edib. "Buna görə Azərbaycan Prezidentinə çox təşəkkür edirəm. İqlim dəyişikliyi mürəkkəb məsələdir, çoxlu çıxışlar var. COP29-dan indiyədək qarşımızda olan vəzifələr barədə məlumatlıyıq. İqlim dəyişikliyi ilə bağlı maliyyə vəsaiti təmin edilməlidir. Həmin vəsait 1,3 trilyon dollar olmalıdır ki, iqlim dəyişikliyi ilə effektiv mübarizə aparıla bilsin. Bu məsələ ətrafında fikir mübadiləsi aparılmalı, fəaliyyətimizi elə qurmalıyıq ki, iqtisadiyyata töhfə verək. Burada geosiyasi məsələ də var. Biz bu mürəkkəb məsələdə həmrəylik nümayiş etdirməliyik. Paris müqaviləsi çərçivəsində fəaliyyət göstərməli, milli səviyyədə töhfələr verməliyik. Bu illər ərzində nailiyyətlər olsa da, səylər davam etməlidir. Maliyyəni də vəziyyətə adaptasiya etməliyik. Dəm qazı buraxılışını 2019-cu ilə nisbətdə azaltmışıq. Alternativ enerji mənbələrinə sərmayə yatırmalıyıq. Həmin enerji mənbələrinə keçid etməliyik. Keçid məsələsinə diqqət yetirilir. Biz iqlim dəyişikliyi ilə mübarizədə bərabər, müştərək məsuliyyət daşımalıyıq. İnteqrasiya şəklində ətraf mühiti sənayenin zərərlərindən qorumalıyıq. Keçid zamanı riskləri nəzərə almalıyıq. Bərabər olmalı, emissiya qarşısında böyük mübarizə aparmalıyıq. Bununla daha təhlükəsiz və parlaq gələcək qura bilərik", - deyə o vurğulayıb.

"NDC Partnership"in ölkələrlə əlaqələr üzrə direktor müavini Estefania Ardila Robles NDC (Milli Səviyyədə Müəyyən Edilmiş Töhfələr - red.) tərəfdaşlığının məqsədinin Paris Sazişinin 2030-cu ilə qədərki gündəmini Davamlı İnkişaf Məqsədlərinə uyğunlaşdırmaq və NDC-nin ikitərəfli və çoxtərəfli donor proqramları vasitəsilə həyata keçirilməsi üçün əlaqələndirmək olduğunu bildirib. "Biz mövcud olan boşluqları aradan qaldırmaqdan ötrü bir çox ölkələrə və təşkilatlara kömək göstəririk. Bu günədək 29 ölkə NDC sahəsində dəstək alıb", - deyə direktor müavini qeyd edib.

Onun sözlərinə görə, hazırda NDC-lərin qiymətləndirilməsi aparılır. İlkin qiymətləndirmə onu göstərir ki, bir çox ölkələr artıq planlar təqdim ediblər.

Mərkəzi Asiya üzrə İqlim Dəyişikliyi və Dayanıqlılıq Xidmətlərinin rəhbəri Viktor Kovalenko aparılan müzakirələrin bir çox fəaliyyətlərə təsir göstərəcəyini qeyd edib: "Fikirlərin sistemləşdirilməsinə ehtiyac var. Mərkəzi Asiya və Cənubi Qafqaz regionunda iqlim dəyişikliyi ilə bağlı baxışlar Qərbi Avropadan, Amerika Birləşmiş Ştatlarından fərqlənir".

Özəl sektorların hökumətdən konkret hədəflər gözlədiyini deyən Viktor Kovalenko dekarbonizasiya məqsədlərinin təkcə dövlətin üzərinə düşməməli olduğunu bildirib.

Sessiya müzakirələrlə davam edib.

"Dəyirmi masa" təşkil olunub

Bakı İqlim Fəaliyyəti Həftəsi 2025 (BCAW2025) çərçivəsində "dəyirmi masa" keçirilib.

AZƏRTAC xəbər verir ki, Milli Məclisin deputatı, ADA Universitetinin prorektoru Fariz İsmayılzadənin moderatorluğu ilə keçirilən "dəyirmi masa"da "İqlim dayanıqlılığı və sıfır emissiyaya keçid üçün iqlim qanunlarının və təşkilatlarının gücləndirilməsi" mövzusu müzakirə olunub.

Milli Məclisin deputatı, Təbii sərvətlər, energetika və ekologiya komitəsinin sədri Sadiq Qurbanov tədbirdə qlobal iqlim dəyişikliyi fəsadlarının hər gün daha aydın şəkildə hiss olunduğuna diqqət çəkib: "Bu dəyişikliklər yalnız ətraf mühitə deyil, həm də insanların sağlamlığına və gələcək nəsillərin həyatına ciddi təsir göstərir. Genetik problemlərə yol açan iqlim dəyişiklikləri göstərir ki, biz daha rasional və davamlı addımlar atmalıyıq".

O qeyd edib ki, hazırkı dünyada hərbi əməliyyatların da təsirini nəzərə alsaq, görüləcək tədbirlər yalnız insanlara deyil, həm də planetimizin gələcəyinə təsir göstərir. Bu baxımdan Prezident İlham Əliyevin rəhbərliyi ilə irəli sürülən sülh və əməkdaşlıq prinsipləri xüsusilə önəm daşıyır. "Davamlı inkişafın əsas meyarlarından biri enerji istehsalıdır. Son dövrlərdə enerji şəbəkəsinə tələbat əhəmiyyətli dərəcədə artıb. Azərbaycanda bərpaolunan enerji sahəsində atılan addımlar bu baxımdan mühüm əhəmiyyət kəsb edir. Xüsusilə Qarabağ və Şərqi Zəngəzur bölgələrində yaradılan yeni enerji obyektləri ölkəmizin enerji təhlükəsizliyinə və davamlı inkişafına böyük töhfə verir. Statistik göstəricilər göstərir ki, gələcəkdə qlobal enerji tələbatı daha da artacaq. Bu isə bizi daha çox məsuliyyətli və innovativ yanaşmalar tətbiq etməyə məcbur edir. Məqsədimiz həm ekoloji dayanıqlılığı təmin etmək, həm də enerji resurslarını səmərəli istifadə etməkdir", - deyə deputat vurğulayıb.

Prezidentin İqlim məsələləri üzrə nümayəndəsi, COP29-un prezidenti Muxtar Babayev Azərbaycanın bu gün iqlim və ətraf mühit sahəsində 20 beynəlxalq konvensiyanın üzvü olmasına diqqət çəkib. Vurğulanıb ki, bu, ölkəmizin bu siyasətə verdiyi dəyərin bariz nümunəsidir. Həmçinin COP29-un keçirildiyi ərəfədə Azərbaycan parlamenti ilə birgə çox vacib iclaslar təşkil edilib. O bildirib ki, Azərbaycanda keçən il qəbul olunmuş çağırışlar və təşəbbüslər COP30-da davam edəcək: "İqlim və ətraf mühit sahəsində parlamentin rolu böyükdür. Çünki qanunvericilik orqanında qəbul olunan qanunlar bu sahədə effektiv tədbirlərin əsasını təşkil edir. Biz bilirik ki, yaxın zamanda Türkiyədə ilk iqlim qanunu təsdiqlənib. Bu, olduqca vacib və təşviqedici addımdır. Ümid edirəm ki, Türkiyədə qəbul edilən bu qanun digər ölkələr üçün də nümunə olacaq və qlobal əməkdaşlıqda yeni imkanlar açacaq".

COP29-un prezidenti vurğulayıb ki, Azərbaycan davamlı olaraq beynəlxalq təcrübəni öyrənir. "Təcrübələri yerli qanunvericilikdə və siyasətdə tətbiq edirik. İqlim və ətraf mühitin qorunması yalnız ölkəmiz üçün deyil, bütün dünya üçün prioritet məsələdir", - deyə o diqqətə çatdırıb.

Milli Məclisin deputatı, COP29-un iqlim dəyişmələri üzrə yüksəksəviyyəli çempionu Nigar Arpadarai özəl sektorun iqlim dəyişikliyi ilə mübarizədə vacib tərəfdaş olduğunu bildirib. O qeyd edib ki, özəl sektorun fəaliyyətləri, innovasiyaları və maliyyə resursları iqlim tədbirlərinin səmərəliliyini artırmaq üçün böyük potensiala malikdir. "Biz bu potensialdan səmərəli istifadə etməli, tərəfdaşlıq və əməkdaşlıq imkanlarını genişləndirməliyik. COP29 çərçivəsində məqsədlərimizdən biri də özəl sektor nümayəndələrini "yaşıl investisiya"lar və davamlı texnologiyalar istiqamətində təşviq etmək idi. Bu, yalnız biznes üçün deyil, bütün cəmiyyət üçün faydalıdır", - deyə N.Arpadarai əlavə edib.

"GLOBE Legislators"un CEO-su Malini Mehra bildirib ki, iqlim dəyişikliyi sahəsi bütün ölkələrin prioritet məsələsi olmalıdır: "Parlamentlərin bu sahədə rolu olduqca əhəmiyyətlidir, çünki onlar iqlimlə bağlı qanunlar və qərarlar qəbul edirlər. Bu, böyük uğurdur. Ancaq qanunvericilik yalnız qərar qəbul etməkdən ibarət olmamalı, həm də ətrafı əhatə etməli və praktik nəticələr doğurmalıdır".

O qeyd edib ki, Azərbaycanda bu sahədə qanunvericiliyin tənzimlənməsi nümunəvidir. Parlament artıq iqlim sahəsində işlərə başlayıb və yeni qanunlar qəbul etməyə hazırlaşır. Bu, həm sevindirici, həm də ümidverici bir haldır. "Qanunvericilər bilməlidirlər ki, parlamentlər milli büdcənin qəbulunda vacib rol oynayır və iqlim məsələləri üzrə maliyyələşmə strateji əhəmiyyət daşıyır. Parlamentlər bir arada işləməli və real hədəflər müəyyən etməlidirlər. Bir çox ölkələrdə parlamentlər öz konstitusiyasına uyğun qərarlar qəbul edərək büdcələrini iqlimlə bağlı prioritetlərə uyğunlaşdırır. Azərbaycan da bu prosesdə fəal iştirak edir. Biz həmçinin Bakı Dövlət Universiteti ilə birgə iqlim dəyişikliyi üzrə təlimat kitabçası nəşr etmişik. Bu kitabçaların əsas məqsədi mütəxəssislərin iqlim dəyişikliyi barədə biliklərini artırmaq, həmçinin maarifləndirmə və məlumatlılığı genişləndirməkdir", - deyə o vurğulayıb.

Hesablama Palatasının sədri Vüqar Gülməmmədov deyib: "Bu gün hökumətlər iqlim dəyişikliyinin fəsadlarını aradan qaldırmaq üçün böyük maliyyə resursları ayırır. Bu isə öz növbəsində nəzarət və şəffaflığın daha da gücləndirilməsini prioritet məsələyə çevirir".

O bildirib ki, dünyada ekoloji problemlərin araşdırılması və iqlim fəaliyyəti üzrə mütəxəssislərə tələbat sürətlə artır. "Müəssisələrdə iqlim fəaliyyəti ilə bağlı hesabatların hazırlanması və təqdim olunması da artıq vacib şərtlərdən birinə çevrilib.

Hesablama Palatası bu sahədə iqlim maliyyəsi və "yaşıl büdcə" anlayışlarının tətbiqini diqqət mərkəzində saxlayır. Bu anlayışlar getdikcə daha çox populyarlaşsa da, etiraf etməliyik ki, hələ də praktik təcrübələrin sayı kifayət qədər deyil. Biz inanırıq ki, müasir yanaşmalar, beynəlxalq təcrübə və milli prioritetlər əsasında həyata keçirilən fəaliyyətlər iqlim dəyişikliyi ilə mübarizədə və ekoloji tarazlığın qorunmasında mühüm nəticələr verəcək", - deyə V.Gülməmmədov əlavə edib.

Baş Prokurorluğun Cinayət təqibindən kənar icraatlar idarəsinin rəisi Elnur Musayev ətraf mühitin mühafizəsi sahəsində ixtisaslaşan qurumun 2020-ci ildə təsis edildiyini deyib: "Son 5 ildə bu istiqamətdə 600-dən çox cinayət işi, 1400-dən artıq inzibati xəta haqqında icraat başlanıb, təbiətə dəymiş ziyanla bağlı 14 milyon manatdan çox vəsaitin ödənilməsi təmin edilib. Baş prokurorun əmrinə əsasən, bu sahədə aparılan araşdırma və istintaq olunan cinayət işləri üzrə vahid reyestr aparılır".

O qeyd edib ki, ətraf mühitin mühafizəsi sahəsində dövlət siyasətinə uyğun olaraq, hüquq-mühafizə orqanları transsərhəd su hövzələrinin çirkləndirilməsi sahəsində beynəlxalq araşdırmalar aparır. Eyni zamanda müxtəlif beynəlxalq platformalarda Xəzər dənizinin iqtisadi fəaliyyət nəticəsində çirkləndirilməsinə və səviyyəsinin aşağı düşməsinin qarşısının alınmasına dair hüquqi əməkdaşlıq müzakirə edilir. "Azərbaycan prokurorları cinayət hüququ vasitəsilə ekoloji cinayətlərə qarşı yeganə beynəlxalq sənəd olan Avropa konvensiyasının hazırlanmasında iştirak ediblər. Nəticə olaraq, bu sahədə uğurlu fəaliyyətin həyata keçirilməsi üçün tələb edilən ekoloji cinayətlərin vahid standartlara uyğun milli qanunvericilikdə əks olunmasına, bu sahədə istintaq və prokurorluq orqanlarında ixtisaslaşdırılmanın həyata keçirilməsinə, proaktiv araşdırmaların həyata keçirilməsinə dair beynəlxalq standartların tətbiqinə davamlı hazırlıq həyata keçirilir", - deyə E.Musayev vurğulayıb.

ESG eksperti Kalyani Inampudi isə tədbirə onlayn qoşularaq qeyd edib ki, müasir biznes dünyasında iqlimlə bağlı görülən işlər maliyyə göstəriciləri uğurun ölçüsü deyil. Şirkətlərin davamlılığı, sosial məsuliyyət və idarəetmədə şəffaflıq prinsipləri artıq investorların və cəmiyyətin əsas gözləntiləridir.

Ekologiya və təbii sərvətlər nazirinin müavini Umayra Tağıyeva COP29-un beynəlxalq əməkdaşlıqda yeni bir mərhələ açdığını diqqətə çatdırıb: "İqlim maliyyələşməsi sahəsində əldə olunan razılaşmalar, bərpaedilən enerji üzrə öhdəliklərin gücləndirilməsi və adaptasiya tədbirlərinin dəstəklənməsi bu konfransın əsas nailiyyətləridir. COP29 həm də ölkələr arasında ədalətli keçidə dair qarşılıqlı anlayışı dərinləşdirərək, gələcək nəsillər üçün daha dayanıqlı dünya qurmaq yolunda əhəmiyyətli addım oldu. Bu nəticələr Azərbaycanın evsahibliyi etdiyi COP-un qlobal iqlim gündəminə verdiyi töhfənin bariz nümunəsidir".

Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Azər Əmiraslanov Bakı İqlim Fəaliyyəti Həftəsinin keçirilməsini ölkəmizin iqlim dəyişmələri ilə mübarizədə qlobal təşəbbüslərə verdiyi töhfənin bariz nümunəsi kimi dəyərləndirib. Onun sözlərinə görə, Azərbaycanın həyata keçirdiyi iqtisadi islahatların mərkəzində "yaşıl inkişaf" modeli dayanır. "Bizim məqsədimiz iqtisadi artımı təmin etməklə yanaşı, dayanıqlı enerji həlləri, innovativ sənaye sahələrini və sahibkarlığın "yaşıl transformasiya"sını dəstəkləməkdir. Əminəm ki, bu həftə ərzində aparılacaq müzakirələr gələcək əməkdaşlıq imkanlarını genişləndirəcək və regionumuzun dayanıqlı inkişafına mühüm töhfə verəcək", - deyə komitə sədri əlavə edib.

Milli Məclisin deputatları Fatma Yıldırım və Afət Həsənova isə Bakı İqlim Fəaliyyəti Həftəsinin hər kəsə iqtisadi inkişafı ekoloji məsuliyyətlə birləşdirməyin vacibliyini xatırlatdığını deyiblər. Çıxışlarda vurğunlanıb ki, Azərbaycanın hədəfi "yaşıl enerji", innovasiya və sahibkarlıqla dayanıqlı gələcək qurmaqdır.

"Dəyirmi masa" müzakirələrlə davam edib.

KOB-larla bağlı müzakirələr aparılıb

Bakı İqlim Fəaliyyəti Həftəsində "Yaşıl bacarıqlar" ekosisteminin dəstəklənməsi - KOB-lar mövzusu müzakirə olunub.

AZƏRTAC xəbər verir ki, sessiya "Rotas Consulthing" şirkətinin nümayəndəsi Orxan Mustafayevin moderatorluğu ilə keçirilib.

Sessiyada çıxış edən Azərbaycan Respublikasının Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin sədri Orxan Məmmədov ikinci ildir keçirilən Bakı İqlim Fəaliyyəti Həftəsinin gözəl bir platformaya çevrildiyini deyib: "Biz keçən həftə Nyu Yorkda iqlim həftəsində iştirak etdik. Orada "yaşıl iqtisadiyyat"la bağlı mühüm məsələləri müzakirə etdik".

O qeyd edib ki, KOB-larda səmərəli istehsal baxımından "yaşıl texnologiya"nın tətbiqi mühüm rol oynayır: "Burada üç məqamı qeyd etmək istərdim: məlumat çatışmazlığı, səriştələrin azalması və maliyyə məsələsini".

Agentlik sədri Azərbaycanda KOB evlərinin geniş yayıldığını bildirib. "Biz sahibkarlarla, yeni biznes açanlarla təlimlər keçiririk. Sahibkarlar səmərəli istehsalla bağlı bir çox təcrübələrə yiyələnirlər", - deyə O.Məmmədov əlavə edib.

O, agentliyin "yaşıl təşəbbüs"ləri dəstəklədiyini diqqətə çatdırıb. "2024-cü ildə ətraf mühit, sosial və korporativ idarəetmə üzrə milli standart qəbul olunub. COP29 çərçivəsində KOB-ların "yaşıl iqlim" keçidi üçün Bakı Koalisiyası Bəyannaməsi imzalanıb", - deyə O.Məmmədov bildirib.

"NDC Partnership"in Braziliyanın SEBRAE qurumunun beynəlxalq münasibətlər şöbəsinin müdiri Vinicius Lages KOB-lara borclarının qaytarılmasında dəstək olduqlarını bildirib. "Bunun üçün yeni fondlar yaradırıq. Biz 3 milyard dollar kredit vəsaiti olan Xüsusi Zəmanət Fondu yaratmışıq. Bu fond risk qavrayışını və borc yükünü azaldır. Bunun üçün müxtəlif təlimlər keçiririk ki, sahibkarlar maliyyəni səmərəli istifadə edə bilsinlər", - deyə o əlavə edib.

KOB-ların rəqəmsal keçid və süni zəkadan istifadəsinin vacibliyinə toxunan Vinicius Lages rəqəmsal və "yaşıl keçid" proseslərin paralel aparılmasının mühüm olduğunu qeyd edib.

Dünya İqlim Fondunun Baş icraçı direktoru Yens Nilsen çıxışında deyib: "İndiyə kimi 70-ə yaxın iqlim həftəsində iştirak etmişəm. Azərbaycan fəxr etməlidir ki, ən yaxşı COP tədbirlərindən birinə evsahibliyi edib. Hazırda dayanıqlı müzakirələr gedir. Fürsətlər daha da böyüyür və qlobal imkanlar yaranır. İqlim dəyişikliyi ilə mübarizədə dayanıqlılıq aktual məsələdir. Dayanıqlılıq məsələsinin həlli heç də asan deyil. Bu gün yaradıb, səhər icra edə bilməzsiniz. Uzunmüddətli və qəliz məsələdir. Burada texnologiyanın iştirakı vacibdir. KOB sahəsində də dayanıqlılıq yaratmaq çətin məsələdir".

Beynəlxalq Əmək Təşkilatının Şərqi Avropa və Mərkəzi Asiya ölkələri üzrə ofisinin Azərbaycan üzrə koordinatoru Yaşar Həmzəyev təşkilatların bir neçə yanaşması olduğunu bildirib: "Əvvəlcə biz "yaşıl biznes" üçün mühit yaradırıq. Çalışırıq ki, KOB-lar öz biznes modellərini yaratsınlar. Əsas məsələlərdən biri də maliyyəyə çıxışdır. Maraqlı ideyalar var, lakin maliyyə qıtlığı olduğu üçün sahibkarlar onları reallaşdıra bilmir".

O, yeni innovativ kredit mexanizmi yaradıldığını qeyd edərək KOB-larla hökumət və özəl sektor arasında sosial dialoqun vacibliyini vurğulayıb. Y.Həmzəyev əsas məqsədin "yaşıl KOB"ların yaradılması olduğunu bildirib.

Yüksəksəviyyəli iqlim çempionları komandası ilə iş əlaqəsinin rəhbəri Elif Karakulak KOB-ların çox böyük rol oynadığını diqqətə çatdırıb. "Sıfır emissiya KOB-lar olmadan mümkün deyil. Lakin onlar iqlim dəyişikliyinin təsirinə məruz qalan tərəflərdəndir.

KOB-ların 66 faizi iqlim dəyişikliyinin təsirlərini görür. Resurs çatışmazlığı var. KOB-lar keçiddən geri qala bilərlər. Çalışırıq ki, KOB-lar "yaşıl keçid"də iştirak etsinlər", - deyə E.Karakulak diqqətə çatdırıb.

Sonda sessiya iştirakçıları mövzu ətrafında fikir mübadiləsi aparıblar.

"Hüquq-mühafizə orqanları iqlim dəyişikliyi ilə mübarizədə mühüm rol oynaya bilər"

Ətraf mühitin çirklənməsinin, torpaqların deqradasiyasının və təbii ehtiyatların həddindən artıq istismarının mənfi nəticələri planetimizin, demək olar ki, hər bir sakinini narahat edir. COP-un himayəsi altında bütün dünyada hökumətlər bu çağırışlara adekvat cavab vermək, siyasi müzakirələr aparmaq və müvafiq qərarlar qəbul etmək üçün güclərini birləşdirirlər. Ancaq bu gün burada olmağımın səbəbi ətraf mühitin qorunması və iqlim dəyişikliyi ilə mübarizə üçün başqa, bir az daha az tanınan bir yanaşmanı - hüquq-mühafizə orqanlarının iqlim dəyişikliyi ilə mübarizədəki rolunu vurğulamaqdır. Düşünürəm ki, hüquq sahəsindəki həmkarlarım mənimlə razılaşacaqlar ki, cəmiyyətin təhlükəsizliyi üçün ciddi problemləri və hüquq-mühafizə orqanlarının rolunu müzakirə edərkən nadir hallarda iqlim dəyişikliyindən bəhs edirik. Ancaq əminik ki, onlar da bu prosesdə mühüm rol oynaya bilərlər.

Bu barədə Azərbaycanın baş prokuroru Kamran Əliyev Bakı İqlim Fəaliyyəti Həftəsinin (BCAW2025) açılış mərasimində bildirib.

"Əminliyimizin mənbəyi Prezident İlham Əliyevin ətraf mühitin mühafizəsini prioritetlərdən biri kimi müəyyən edən "yaşıl gündəm"lə bağlı siyasi iradəsi və geniş baxışıdır. Bu, bizi 2020-ci ildə Azərbaycan Prokurorluğunda yeni strukturun: Qeyri-Cinayət Prosesləri Departamentinin yaradılmasına gətirib çıxardı. Departament ətraf mühit qanunvericiliyinə əməl olunmasına prokuror nəzarəti həyata keçirərək cinayət təqibindən kənar proseslərdə dövlətin və cəmiyyətin maraqlarını qoruyur. Ancaq səylərimiz milli səviyyədə islahatlarla məhdudlaşmır. Heç bir ölkənin və ya ayrı bir hüquq-mühafizə orqanının tez-tez transmilli olan ekoloji problemlərin öhdəsindən təkbaşına gələ bilməyəcəyini qəbul edirik. Ona görə də bu məsələni beynəlxalq gündəliyə daxil etməyə çalışırıq. Belə ki, ötən il Bakıda keçirilən COP29 zamanı Azərbaycan Prokurorluğu Birləşmiş Millətlər Təşkilatının Narkotiklər və Cinayətkarlıq İdarəsi ilə birgə ekoloji təhlükələrə qarşı mübarizə məqsədilə hüquq-mühafizə orqanlarının resurslarını məlumatlandırmaq və səfərbər etmək məqsədilə "İqlim dəyişikliyi sahəsində fəaliyyətin aktivləşdirilməsi üçün hüquq-mühafizə orqanlarının səfərbər edilməsi" mövzusunda yüksəksəviyyəli sessiya təşkil edib. Sessiyanın sonunda "Bakı fəaliyyətə çağırış" - gələcək əməkdaşlıq üçün möhkəm zəmin yaradan tarixi bəyannamə qəbul edilib. Bu, qanunvericilik bazasının möhkəmləndirilməsinə, araşdırmaların aparılması imkanlarının təkmilləşdirilməsinə və ətraf mühit cinayətlərinə qarşı mübarizədə geniş əməkdaşlığın qurulmasına, dünyanın hər yerindən hökumətlərin, beynəlxalq təşkilatların və hüquq-mühafizə orqanlarının nümayəndələrinin birləşdirilməsinə yönəldilib", - deyə baş prokuror vurğulayıb.

Kamran Əliyev diqqətə çatdırıb ki, hazırda birgə səylər Bakını Braziliyanın Belem şəhəri ilə birləşdirən "Bakı fəaliyyətə çağırış"a əsaslanır: "Bu istiqamətdə fəal iştirakımızı davam etdirməyi planlaşdırırıq və bu çərçivədə yalnız bir neçə həftə sonra Belemdə COP30 çərçivəsində təşkil edilən paralel Prokurorluq Xidməti Rəhbərləri tədbirində təcrübəmizi bölüşəcəyik".